**AZƏRBAYCAN RESPUBLİKASININ TARİF (QİYMƏT) ŞURASI**

**QƏRAR № 17**

**Bakı şəhəri, 29 dekabr 2024-cü il**

**“Azəristiliktəchizat” ASC tərəfindən göstərilən xidmətin tarifinin tənzimlənməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə”yə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 30 dekabr tarixli 247 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları”na uyğun olaraq və “Azəristiliktəchizat” ASC-nin müraciəti nəzərə alınaraq Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası **QƏRARA ALIR:**

1. “Azəristiliktəchizat” ASC tərəfindən əhali istehlakçı qrupuna göstərilən istilik xidmətinin tarifi 1 Qkal üçün ƏDV daxil olmaqla 14,60 manat, sayğac quraşdırılmadığı halda isə aylıq 1 $m^2$ üçün ƏDV daxil olmaqla 0,30 manat təsdiq edilsin.
2. Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının “Azəristiliktəchizat” ASC tərəfindən göstərilən xidmətlərin tariflərinin tənzimlənməsi barədə” 2011-ci il 24 noyabr tarixli 04 nömrəli Qərarı ləğv edilsin.
3. Bu qərar 2025-ci il 2 yanvar tarixindən qüvvəyə minir.

**Azərbaycan Respublikası**
**Tarif (qiymət) Şurasının sədri** **Mikayıl Cabbarov**